# COP29-un Təşkilat Komitəsində təmsil olunan QHT-lər və ekoloji profil üzrə bir sıra ekspertlər ilə görüş keçirilib



Fevralın 26-da QHT-lərə Dövlət Dəstəyi Agentliyində Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, COP29, Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyası və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının keçirilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsində təmsil olunan QHT-lərlə, o cümlədən ekoloji profil üzrə fəaliyyət göstərən bir sıra ekspertlərlə görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası ilə bağlı Azərbaycan QHT-lərindən olan gözləntilər diqqətə çatdırılıb, onların COP29-da fəal şəkildə iştirakı üçün zəruri məsələlər müzakirə edilib.

Qeyd olunub ki, Təşkilat Komitəsində dövlət qurumları ilə yanaşı, müvafiq profil üzrə işgüzar, ən fəal vətəndaş cəmiyyəti təsisatlarının yüksək səviyyədə təmsilçiliyi Azərbaycan dövlətinin QHT-lərə yaratdığı şəraitin, göstərilən böyük etimadın parlaq nümunəsidir. Görüşdə COP29-la əlaqədar müvafiq Təşkilat Komitəsinin üzvləri - QHT-lərə Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva, "EkoSfera" Sosial Ekoloji Mərkəzinin İdarə Heyətinin sədri Firuzə Sultanzadə, "Qadın, İnkişaf, Gələcək" İctimai Birliyinin sədri Gülşən Axundova, "Sağlamlığa Xidmət" İctimai Birliyinin icraçı direktoru, "Environmental Protection First" Koalisiyasının həmtəsisçisi Pərvanə Vəliyeva, Gənclərin Gender Bərabərliyi Mərkəzi "Gender Hub" İctimai Birliyinin sədri Məryəm Məcidova, həmçinin ekoloji profil üzrə fəaliyyət göstərən bir sıra ekspertlər, o cümlədən İsa Əliyev, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın sədri Amin Məmmədov və digər şəxslər iştirak ediblər.

Müzakirələr və müvafiq məsləhətləşmələr mütəmadi olaraq davam etdiriləcək.

Azərbaycan.- 2024.- 27 fevral, № 44.- S.10.